

# ŞƏRQ qapısı

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 246 (23.888)

1 yanvar 2022-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiymәti 20 qəpik

## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı ilə əlaqədar paylaşım edib.

Şuşa qalasını əks etdirən foto Prezident İlham Əliyevin rəsmi feysbuk və tviter səhifələrində paylaşılıb.

Fotonun üzərində "Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni iliniz mübarək!" sözləri yazılıb.



## Dövlət-xalq-ordu birliyi

## Naxçıvan Qarnizonu Mərkəzi Hospitalına bayram sovqatı aparılıb



***"Xalq, dövlət orduya ümid edir, orduya güvənir. Ordu isə xalqın, dövlətin dəstəyinə güvənir"***, – deyən ümummilli liderimiz Heydər Əliyevin Naxçıvanda əsasını qoyduğu milli həmrəylik bu gün müstəqil Azərbaycanda inkişafın və sabitliyin əsas təminatıdır. Dünya azərbaycanlılarını vahid ideologiya ətrafında birləşdirən həmrəylik bayramı bu gün xalq-ordu birliyinin də əsasını təşkil edir. Bunun nəticəsidir ki, ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ordumuz Vətən müharibəsində tarixi Qələbə qazandı. Naxçıvan Muxtar Respublikasında da həmrəylik bayramında əsgərlərlə görüşlərin keçirilməsi, sovqatların aparılması bu birliyin daha bir nümunəsi kimi mühüm əhəmiyyətə malikdir.

Dekabrın 31-də – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günündə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Naxçıvan Qarnizonu Mərkəzi Hospitalına gəlmiş, burada müalicə olunan hərbi qulluqçularla görüşmüş, onların səhhəti ilə maraqlanmışdır.

Əlahiddə Ümumqoşun Ordu komandanı, general-polkovnik Kərəm Mustafayev Ali Məclisin Sədrinə raport vermişdir.

Bildirilmişdir ki, bu il ölkə Prezidentinin iştirakı ilə istifadəyə verilən hərbi hospital regionun ən müasir səhiyyə ocağıdır. Hospitalda müxtəlif şöbə və bölmələrin fəaliyyət göstərməsi, eləcə də ixtisaslı həkimlərin olması, ən son tibbi avadanlıqlarla təminat xəstələrin hərtərəfli müayinə və müalicəsinə imkan verir. Digər tərəfdən isə hərbi hissələrdə şəxsi heyətin sağlamlığının qorunmasına xüsusi diqqət yetirilir, iqlim şəraitinə uyğun rejim qaydaları və qidalanma təminatı olunur, dərman vasitələri ilə təminat və ilkin tibbi yardım diqqətdə saxlanılır. Bütün bunlar isə Naxçıvan Qarnizonu üzrə şəxsi heyətin sağlamlığını etibarlı qorumağa imkan verir, xəstələrin sayı azalır.



Həkim Anar Əliyev minnətdarlıq edərək demişdir: "Bu gün müasir iş şəraiti yaradılan hospitalda xidmət edirik. Yaradılan şəraitdən istifadə edərək hərbi qulluqçuların sağlamlığının keşiyində dururuq. Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə kollektiv adından təbriklərimizi çatdırır və əmin edirik ki, bundan sonra da səylə çalışacağıq".



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov əsgərləri və tibbi heyəti Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə təbrik edərək demişdir: Müasir hospitalda çalışmaq həkimlərə peşələrini daha yaxşı icra etmələrinə imkan verir. Əvvəlki hospitalda tibbi heyətin fəaliyyəti üçün çətinliklər yaranırdı. Bu gün isə xəstələrə keyfiyyətli tibbi xidmət göstərmək üçün bütün şərait vardır.

Əsgər Eldar İmanov və zabit Elbrus Tağıyev yaradılan şəraitə və göstərilən diqqətə görə minnətdarlıq etmişlər.

Ali Məclisin Sədri yeməkxanada olmuş, hərbi qulluqçuların qidalanması ilə maraqlanmış, hospitalda mülki şəxslər üçün də tibbi xidmətin təşkili və kadr işinin diqqətdə saxlanılması barədə tapşırıqlar vermişdir.

Hospitalda müalicə alan əsgərlərə və tibb heyətinə bayram hədiyyələri paylanmış, gətirilmiş ərzaq məhsulları mətbəxə təhvil verilmişdir.



* * *

Həmin gün Naxçıvan Muxtar Respublikası Psixi və Ağciyər Xəstəlikləri dispanserlərində, Onkoloji və Yoluxucu Xəstəliklər mərkəzlərində də xəstələrə və tibb işçilərinə hədiyyələr paylanılmış, gətirilmiş ərzaq məhsulları anbarlara təhvil verilmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

# Dövlət-xalq birliyinin, vətəndaş həmrəyliyinin ifadəsi



*Ömrümüzə, gün-güzəranımıza və təbii ki, şanlı və şərəfli tariximizə öz mübarək izlərini pozulmaz naxışlarla yazan illərdən birini də başa vurduq. Deyə-deyə, gülə-gülə yaşadığımız 2021-ci il əvvəlki illərdən bir sıra məqamları ilə daha əziz oldu. O məqamlar ki bütün xalqımız yaşadı. Sadalamaqla qurtarmayan əlamətdar hadisələr hər birimizə sevinc gətirdi. Qalib dövlətin vətəndaşları kimi o sevinc bizim mənəvi haqqımızdır.*

Bu gün dünənə boylanıb o məqamları xatırladıqca, yada saldıqca, göz önünə gətirdikcə qəlbimiz dağa dönür, belə bir dövlətin vətəndaşı olmaqdan qürur hissi keçiririk. Bu düşüncələri həmkarlarımla 31 dekabr günü səhər saatlarından başlayaraq illərdir ki, müasirliyə qovuşmuş qədim paytaxt şəhərimiz Naxçıvanda bayram gəzintisində yaşadım. Xalq-dövlət birliyini, vətəndaş həmrəyliyini bir daha gördüm. Bizə bu günləri bəxş etmiş ulu öndər Heydər Əliyevin adını daşıyan prospektdən tutmuş Naxçıvanın ən ucqar məhəllələrinə qədər hər yer bayramsayağı bəzədilməklə, naxçıvanlıların, belə əziz gündə şəhərimizə ölkəmizin digər bölgələrindən gəlmiş qonaqların, xüsusilə də uşaqların üzlərindəki bayram təbəssümü çox ürəkaçan idi. Küçələrboyu səliqə ilə yaradılmış emal və istehsal müəssisələrinin, ictimai iaşə obyektlərinin pavilyonları, bir neçə ünvanda qurulmuş yolkalar, Şaxta baba, Qar qız qədim diyarımızın yurd qədri bilən, doğma torpağın hər qarışını igidliklə qoruyaraq ata-baba əmanətinə sədaqət və ehtiramını özünün həyat idealına çevirmiş naxçıvanlıların bu bayramlara necə hazırlaşdıqlarını göstərirdi.





Babaları, nənələri ilə əl-ələ verib bayram sevincinə qoşulan balacaların çöhrəsindəki xoşbəxt təbəssüm bayram ovqatını ikiqat artırırdı. Əllərində qalib dövlətin üçrəngli bayrağını görmək isə daha qürurverici hisslər yaşadırdı insana...

Daha uğurlu bir il, beləcə, ömrünü yeni ilə verdi. Yeni uğurlar qazanmaq arzusu ilə. Daha xoş, firavan günlər yaşamaq istəyi ilə. Ölkəmizin iqtisadi qüdrətinin və dövlət-xalq həmrəyliyinin daha da güclənməsi diləyi ilə. Belə olacağına əminliyimiz isə 2020-ci ildə qazandığımız tarixi Qələbəmiz qədərdir.

***Həmrəylik bayramımız və Yeni iliniz mübarək!***

✍ **Muxtar MƏMMƏDOV**

---

Ordum varsa, yurdum var

# Güclü ordu, qüdrətli dövlət, həmrəy xalq...

## *Qələbəyə aparan bu başlıca amillər gələcək uğurların da təməlidir*

***Xalqımız, eləcə də dünyanın müxtəlif ölkələrində məskunlaşmış soydaşlarımız hər il dekabrın 31-ni – Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününü böyük həvəs və coşqu ilə qeyd edir. Builki bayramı ikiqat sevinclə qarşılayırıq. Çünki qalib dövlət, qalib xalq, qalib ordumuzun həmrəy olaraq uzun illər düşmən tapdağında qalmış torpaqlarımızı azad etməsinin birinci ildönümünü qeyd etmişik. Bu günlərdə məhz qalib ordunun əsgərləri ilə görüşmək, onların yaşadıqları bayram ovqatını görmək üçün Naxçıvan Qarnizonunun Şahbuz rayonunda yerləşən “N” hərbi hissəsində olduq.***

Bu yola mətbuat və ictimaiyyət nümayəndələri, Naxçıvan Dövlət Filarmoniyasının ansamblı və Əlahiddə Ümumqoşun Ordunun zabitləri ilə birlikdə çıxmışıq. Yolboyu ordumuzun 44 gün davam edən Vətən savaşında göstərdiyi qəhrəmanlıqları, ölkə rəhbərinin qətiyyətli addımları, dövlət-xalq-ordu birliyi barədəki söhbətlər bir vətəndaş kimi hər birimizdə qürur doğurur. Budur, yolun necə bitdiyinin fərqinə varmadan artıq ünvana çatırıq. Vüqarını elə Vətən dağlarından alan igid əsgərlərimizin düşmənlə üz-üzə məğrur, qorxmaz duruşu sevincimizə sevinc qatır. Ordumuzun hər bölməsində vətənpərvər, cəsur oğulların xidmət etdiyinin daim şahidi olmuşuq. Bu gün də “N” hərbi hissənin düşmənlə təmas xəttində yerləşən bölməsində vətənpərvər əsgərləri tanımağın sevincini yaşayırıq. Vətənin keşiyində dayanan bu oğulların qətiyyəti, məğrurluğu sayəsində torpaqlarımız inamla qorunur. Düşmən hər an nəzarətdə saxlanılır.









İlk işimiz burada xidmət edən əsgərlərimizin sosial məişət şəraiti ilə tanışlıq olur. Əsgərlərimizdə döyüş ruhu, mənəvi-psixoloji hazırlıq ilk baxışdan hiss edilir. Diqqətimizdən qaçmır ki, burada əsgərlərin uğurlu xidməti üçün hər cür şərait yaradılıb. Düşmənlə təmas xəttində belə, nümunəvi şərait dövlətimiz tərəfindən hər bir əsgərə yüksək diqqət və qayğı göstərildiyinin bariz nümunəsidir. Tanışlıq zamanı əsgər ***Subay Məmmədov*** deyir:

– Mən Şəki rayonundan hərbi xidmətə çağırılmışam. Naxçıvana ilk dəfə idi gəlirdim. Əvvəllər çətinlik çəkəcəyimi düşünsəm də, hərbi xidmətə başladığım gündən istər komandir heyəti, istərsə də əsgər yoldaşlarımın göstərdiyi yaxınlıq mənə buranı doğmalaşdırdı. Valideynlərim məni görməyə gələndə buradakı şəraiti görərək sevinirlər. “Yaradılan şəraitdən istifadə edərək Vətənin keşiyində daha da ayıq-sayıq dayanmağımızı tövsiyə edir, torpağımızın hər qarışı, əgər onu qoruyan, uğrunda canından keçən oğlu varsa, Vətəndir”, – deyirlər. Onu da deyim ki, burada düşmənlə üz-üzə xidmət etmək daha böyük fəxarət verir mənə. Ordumuz nəyə qadir olduğunu cəmi 44 gün ərzində sübut edərək düşmənin qorxulu röyasına çevrildi. İndi səngərlərimizdə xidmət aparan əsgərlərimiz düşmənə gözdağı olublar.

Xidmət etdiyim dövr ərzində bir çox keyfiyyətlərə yiyələnmişəm. Dözümlülük, möhkəmlik, mərdlik kimi əsl kişiyə xas xüsusiyyətlər əxz etmişəm. Naxçıvan torpağında dünyaya göz açmasam da, burada birömürlük vəfalı dostlar qazanmışam. Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününü, Yeni ilin gəlişini bu il burada, Vətən keşiyində qeyd edəcəyəm. Buna görə daha çox sevinirəm. Çünki uzun illərdir, xalqımızın hər bir bayramda yeganə böyük arzusu var idi: “Gün o gün olsun, gələn bayram işğaldan azad torpaqlarımızda qeyd olunsun”, bax bu gün həmin gündür. Artıq Şuşada, Laçında, eləcə də işğaldan azad edilmiş digər torpaqlarımızda bayram ab-havası yaşanır. İnanıram ki, Vətən qarşısında borcumu layiqincə yerinə yetirib, ailəmin yanına başıuca qayıdacam.

Bayram ərəfəsində unudulmadıqları üçün dövlətimizə minnətdarlıq edən əsgərimiz deyir ki, evimizdə, elimizdə yeni illər, bayramlar, gözəl anlar hələ çox olacaq. Səngərdə düşmənlə üz-üzə dayanaraq milyonlarla igidin canını qurban verdiyi Vətən, bütöv bir xalqın keşiyində durmaq hər birimiz üçün böyük şərəfdir. Xalqımızın bu bayramları əmin-amanlıq şəraitində, rahat, qorxusuz qarşılamasının, arxayınlıqla bayram etməsinin əsas səbəbkarı elə səngərdə Vətən keşiyində məğrurluqla dayanan əsgərlərimizdir.

Digər müsahibim Cəbrayıl rayonundan olan əsgər ***İsmayıl Süleymanzadə***dir:

– Gənc əsgər olarkən keçirilən təlimlərə ciddi yanaşmağa səy göstərdim. Hərbi sirləri, silahla davranış qaydalarını həvəslə öyrəndim. Bu işdə komandirlərimin də köməyini vurğulamaq istəyirəm. Əsl əsgərlər kimi formalaşmağımızda böyük zəhmətləri var. Təlim zamanı tələbkar komandir, sərbəst vaxtlarımızda qayğıkeş ata kimi qayğımızı çəkirlər. Xidmətə başladığım gündən onlardan doğma münasibət görmüşəm. Burada ailə mühitində xidmət edirik. Şəraitimiz də yüksəkdir. İsti yataq yerimiz, yun və qalın qış geyimlərimiz var. Keyfiyyətli yeməklərlə qidalanırıq. Asudə vaxtlarımız da səmərəli keçir, qəzet və jurnallar oxuyur, televizora baxır, idmanla məşğul oluruq. Ordu quruculuğunda aparılan uğurlu islahatların nəticəsində bütün bölmələrdə yüksək təminat yaradılıb. Belə bir şərait isə hər bir zabitə, əsgərə xoş ovqat, döyüş ruhu aşılayır. Övladını əsgəri xidmətə yola salan ana ondan nigaran qalmır.

Daşkəsən rayon sakini, 12 aydır ki, hərbi xidmətdə olan Niyaməddin Həsənov deyir ki, Azərbaycan Ordusunun əsgəri olmağı ilə fəxr edir. Biz bu gün xoşbəxtik ona görə ki, bütöv, müstəqil, qalib bir dövlətin əsgərləriyik. Bizə oğul deyən Vətənimiz, uğrunda canımızı “uf” demədən qurban verəcəyimiz müqəddəs torpaqlarımız, daim fəxr ediləcək keçmişimiz, çiçəklənən bu günümüz, parlaq gələcəyimiz əmin əllərdədir. Müstəqilliyi qoruyub saxlamaq üçün güclü ordu ən vacib şərtlərdəndir. Güclü ordusu olmayan dövlətin müstəqilliyi daim düşmənlərin təhlükəsi altında olar. Lakin bu hələ hər şey demək deyil. “Öncə Vətəndir!”, – deyib sinəsini düşmən gülləsinə sipər edən oğullarımızda olan ürəkdir bizi yenilməz edən. Mən heç vaxt atalarımızdan miras qalmış “Qılınc həmin qılıncdır, qol o qol deyil” deyimini unutmuram. Çünki silah-texnika düşməndə də var, lakin əsgər həmin əsgər, ürək həmin ürək deyil. Vətən savaşı bir daha sübut etdi ki, onların əsgərləri silahını döyüş meydanında qoyub qaçır, bizim əsgərlər isə son damla qanına qədər döyüşü davam etdirir.

Uca dağ zirvəsində həmsöhbət olduğum əsgərlərin dedikləri fəxarət hissi yaşamağımızla yanaşı, həm də könlümüzü oxşayır.

Görüşümüzün bu hissəsindən sonra hərbi hissədə Naxçıvan Dövlət Filarmoniyasının Mahnı və Rəqs Ansamblının hərbçilərimiz üçün hazırladığı konsert proqramında iştirak etdik.

Tədbirdən sonra Əlahiddə Ümumqoşun Ordunun zabiti ***Yalçın Ağayev*** ilə həmsöhbət olduq. O bildirdi ki, bu gün Azərbaycan Ordusunun hər bir bölməsində xidmət üçün yüksək şərait yaradılıb. Əsgərlərimiz, zabitlərimiz Vətənin keşiyində hər saniyə ayıq-sayıq dayanıblar. Bu gün qalib orduda xidmət aparmaq hər birimiz üçün qürur mənbəyidir. İllərdən bəri davam edən təzyiqlərin qarşısında humanitar prinsiplərə söykənərək münaqişənin sülh yolu ilə həll edilməsinin tərəfdarı olan cənab Ali Baş Komandanımızın səbir kasası 27 sentyabr 2020-ci ildə düşmənin ordumuza və torpaqlarımıza qarşı növbəti təxribatı ilə daşdı. Əks-hücum əmrinin verilməsi ilə nəinki ordumuzun, bütün Azərbaycan xalqının qanı coşdu. Hər kəs müsəlləh əsgər kimi döyüş xəttinə yollanmaq üçün səfərbər oldu. Bu dəfə ordumuz 1990-cı illərin əvvəllərindəki əliyalın, nizamsız, pərakəndə ordu deyildi. Tam qüvvə, müasir hərbi texnika və Ali Baş Komandanın rəhbərliyi altında nizamlı ordu düşməni məğlub edə bildi. Ordumuzun gücündən lərzəyə gələn düşmən bir-birinin ardınca işğal bölgələrini tərk edib getməyə məcbur oldu. 44 gün davam edən müharibədə öz gücünü tamamilə itirən, ard-arda öz torpaqlarını işğaldan azad edən ordumuzun qarşısında diz çökən qondarma Ermənistan hökuməti 10 noyabr 2020-ci ildə müharibəyə son qoyulması, işğalçı dövlətin torpaqlarımızdan tamamilə çıxarılması üçün bəyanat imzalamaq məcburiyyəti qarşısında qaldı.

Şəhidlərimizi dərin hüzn və fəxarət hissi ilə yad edən zabit onu da vurğuladı ki, bu gün şəhid ailələrinə və qazilərə göstərilən diqqət və qayğı muxtar respublikamızda da yüksək səviyyədədir. Şəhid ailələrinin, qazilərimizin mənzil və avtomobillərlə təmin edilməsi bu qayğının bariz nümunəsidir.

*Əsgər həyatının bir gününə bələdçilik etdiyimiz saatlar ərzində əmin olduq ki, əsgərlərimiz Vətənimizə, millətimizə sadiq oğullardır, cəsurdurlar, qorxmazdırlar. İstənilən şəraitdə torpaqlarımızın keşiyində inamla dayanmağa qadirdirlər. Belə əsgərlərin qarşısında isə heç bir düşmən, heç bir texnika tab gətirə bilməz!*

✍ **Telli MƏMMƏDOVA**

***Müasir dünyanın mənzərəsinə baxdıqda qloballaşma prosesləri ilə yanaşı, planeti bürüyən böhranlı vəziyyət qarşısında bir sıra beynəlxalq təşkilatların o qədər də effektli olmayan cəhdləri fonunda cərəyan edən mürəkkəb hadisələrin şahidi oluruq. Hələ də mövcud olan qlobal pandemiya, bununla paralel olaraq dünya üzrə təchizat zəncirinin qırılmasından qaynaqlanan pozulmuş dünya iqtisadiyyatı problemləri gündəmdəki yerini qorumaqdadır. Əgər bütün bunlara böyük dövlətlərin bitmək bilməyən intriqalarını, xaotik miqrasiya, ekoloji böhranlar, enerji və qida təhlükəsizliyi kimi mühüm gündəlik problemləri də əlavə etsək, dünya düzəninin nə qədər ciddi çətinliklərlə üz-üzə qaldığını söyləmək olar.***




# Azərbaycanın şanlı Zəfər yolu

Şübhəsiz, elm, texnologiya və həyat standartları səviyyəsinin yüksəlməsi fonunda bunların bir qisminin birgə səylərlə həll olunduğunu deyə bilərik. Ancaq, sadəcə, son 100-150 illik bir tarixə nəzər saldıqda daha kəskin elə ciddi problemlərin mövcud olduğunu görürük ki, bunların dövrümüzə qədər uzanması artıq XXI əsrin mədəni cəmiyyəti üçün, sözün əsl mənasında, baş ağrısından başqa bir şey deyildir. Bu mənada, bu gün planetimizin başda ermənilər olmaqla, başqa millətlərə qarşı kin-nifrət hissləri ilə doğulan faşizm ünsürlərindən, gözü doymayan torpaq hərislərindən, böyük dövlətlərin arxasınca qaçıb hoqqabazlıqla siyasi divident və maddi nəmər arxasınca sürünənlərdən təmizlənməsi bütün sivil bəşəriyyətin qarşısındakı müqəddəs savaşlardan biridir. İnanırıq ki, ötən ilin payızında 44 günlük şanlı Vətən müharibəsində Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə müzəffər Azərbaycan Ordusunun qalibiyyətindən sonra başlanan tarixi missiya təkcə Cənubi Qafqazda deyil, bütün dünyada rast gələnən belə faşist və revanşist, insanlığa yad olan bütün ünsürlərdən tam təmizlənənə qədər uğurla davam etdiriləcək. Çünki bu, yaxın keçmişdə erməni faşizmindən ən çox əziyyət çəkmiş Azərbaycandan başlanan Zəfər yoludur.

2020-ci ildə Azərbaycanın başlatdığı, xan Arazın minillik keşikçisi Xudafərindən mədəniyyət paytaxtımız Şuşaya qədər uzanan Zəfər yolu üzünü dədə-baba yurdumuz Zəngəzura doğru çevirərək bütün Türk dünyasını qovuşdurmağa doğru tələsir. Artıq ötənilki məğlubiyyətindən sonra hələ də özünə gəlməyib, sağa-sola çırpınan erməni cəmiyyətinin və eləcə də onların hay havadarlarının da Azərbaycanın diktə etdiyi yeni reallığı qəbul etməkdən başqa çarəsi qalmayıb. Belə ki, acgözlüyündən özünü düşürdüyü yoxsulluq və səfalət bataqlığında boğulan bu etnos ya "erməni xəstəliyi" simptomları ilə yatağa düşüb bir gün tamamilə məhv olacağını, ya da qonşuları ilə normal münasibət yaradıb əvvəllər olduğu kimi, onların hesabına normal dolanışıq qurmaqdan başqa bir yolunun olmadığını indi daha yaxşı bilir. Hər halda Ermənistan ordusunun və iqtisadiyyatının yox olması dərəcəsində başlarına dəyən dəmir yumruğun gücü bundan artığına da yetərdi. Ancaq Azərbaycan xalqı, onun uzaqgörən lideri məhz uzaq gələcəyi, strateji hədəfləri əsas götürərək bir an öncə bu regionda qan tökülməsinin qarşısının alınması, dinc quruculuq işlərinə başlanılması, yaranmış regional və qlobal əməkdaşlıq perspektivlərində tarixi öncüllük missiyasına başladı. İndi heç kimdən asılı olmayan, müstəqil Azərbaycan Respublikası qarşısında daha ali, daha dünyəvi məsələlərin həlli dayanır.

Bu gün erməni faşizminin belini qıran Azərbaycanı dünyada hamı tanıyır. Nümunə üçün, dünyada ölkəmizdən ərazi və əhali ehtiyatlarına görə daha böyük olsa da, yalnız keçirilən idman yarışları və ya kəskin dəyişən hava şəraiti ilə gündəmə gələn bir sıra dövlətlərlə müqayisədə bu gün Azərbaycan deyəndə, Avropanın enerji təhlükəsizliyində mühüm yer tutan, partnyorluq müqavilələrində bir kəlmə sözünün belə, arxasında dayanan, qlobal əməkdaşlıqda, xüsusən humanitar məzmunlu bir sıra beynəlxalq layihələrdə böyük dövlətlərə belə, örnək göstərilən, dayanıqlı inkişaf prinsipləri ilə əhalisinin sosial müdafiəsi, həyat səviyyəsi məsələlərini daim gündəmdə saxlayan, söz, mətbuat azadlığı, insana verilən dəyərlə hamının yaşamaq arzusunda olduğu Günəşli bir ölkə başa düşülür. Ölkəmizin qlobal əməkdaşlıq kontekstində üzərinə düşən tərəfdaşlıq öhdəliklərini davamlı olaraq icra etməsi və diplomatik sahədə həyata keçirdiyi qətiyyətli tədbirlər ölkəmizin müsbət imicini daha da möhkəmləndirən mühüm nailiyyətlərdəndir. Bütün bunlar isə 30 ilə yaxın müddətdə torpaqlarının 20 faizi erməni işğalında olmuş, 1 milyon qaçqın və köçkün vətəndaşının problemləri ilə üz-üzə qalmış, hazırda isə tarixi Qələbədən sonra Qarabağa böyük qayıdış üçün bütün qolların çirmələnib erməni vandallarının izlərinin silinməsi üçün gecə-gündüz çalışıldığı, ərazilərimizin xain düşmən minalarından təmizlənməsindən tutmuş yeni yolların çəkilməsi, müasir hava limanlarının tikilməsi, yeni növ sosial-mədəni həyat göstəriciləri olan yaşıl enerji və ağıllı kənd layihələrinin həyata keçirilməsi, erməni vandalizminin qurbanı olmuş tarixi abidələrimizin bərpası kimi genişmiqyaslı işlər fonunda aparılır. Qarabağ münaqişəsi bitsə də, hələ davam edən informasiya savaşında yenə də Müzəffər olan ölkə başçısı keçirdiyi hər görüşdə, qatıldığı hər mötəbər beynəlxalq tədbirdə, verdiyi hər müsahibədə bütün bunların xalqının dəstəyi ilə qazandığı Böyük Zəfərin davamı olduğunu dilə gətirir, Azərbaycanın strateji maraqlarına cavab verən bütün hədəflərə hansı yollarla olursa-olsun, mütləq çatacaqlarını sərrast şəkildə ifadə edir. İndi bütün dünya siyasət və hərb tarixinə yeni terminlər gətirmiş Azərbaycan liderinin verəcəyi hər qərarı maraqla gözləməkdədir. Çünki bu qərarlar dünyada Xeyirin Şər üzərində tam zəfər çalması üçün verilən qərarlardır.

Azərbaycan 2022-ci ilə böyük uğurlarla qədəm qoyur. Yola saldığımız günlərə qısa bir nəzər saldıqda ölkəmizdə yeni cəmiyyət quruculuğunda, insanların daha xoşbəxt, daha firavan yaşayışı naminə nə qədər böyük işlər görüldüyünün şahidi oluruq. Bütün bunlar isə tariximizin qızıl səhifələrinə yazılacaq geniş və gələcək üçün taleyüklü məsələlərdir. Dünyada və regiondakı geostrateji şərtlərin 180 dərəcə çevrilərək Azərbaycanın xeyrinə işlədiyi bir dövrdə ölkəmizin günbəgün artan nüfuzunun, güclənən iqtisadiyyatının və yenilməz şanlı ordusunun qələbələrinin əsasında Prezident cənab İlham Əliyevin başlatdığı uğurlu yol vardır.

***Bu, Azərbaycanın başladığı Zəfər yoludur.***

**Əli CABBAROV**



# Ötən ilin uğurları yeni ilimizə işıq saçır

Ömrümüzdən, günümüzdən pay verdiyimiz daha bir il də ötdü, keçdi, beləcə… XXI əsrin Böyük Zəfər tarixinin ikinci bütöv ili – 2021-ci ilində qələbə sevincinin bəhrələrini yaşadıq. Bu sevinci xalqımıza, bütün dünya azərbaycanlılarına yaşadan ölkə Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevə, Azərbaycanın Silahlı Qüvvələrinin əsgər və zabitlərinə minnətdarıq. Qanları, canları ilə tarix yazan şəhidlərimizin ruhu qarşısında baş əyir, onlara rəhmət diləyirik. Dövlət başçısı cənab İlham Əliyevin doğum günündə işğaldan azad edilmiş ərazilərimizə – Hadrut qəsəbəsinə, Qarabağın tacı, Azərbaycanın ürəyi, mədəniyyət paytaxtımız Şuşaya səfəri də özündə bütün çağırışları ehtiva edir. Şuşanın Cıdır düzündən xalqa həm təbriklərinə, həm də göstərdikləri dəstəyə görə təşəkkürünü bildirən cənab İlham Əliyev bir daha böyük qürur hissi ilə dedi ki, bu gün azad Qarabağda, Zəngəzurdayıq. Bu torpaqların sahibləri öz əzəli dədə-baba yurdlarına qayıtmışıq və bundan sonra bu torpaqlarda əbədi yaşayacağıq.

İkinci Qarabağ müharibəsinin ilk günlərindən Azərbaycan xalqı Prezident cənab İlham Əliyevin ətrafında bir amal, müqəddəs ideya uğrunda sıx birləşərək bu birliyin qırılmaz gücünü göstərdi. Azərbaycan yalnız hərb meydanında deyil, diplomatiyada, informasiya müharibəsində də üstünlüyünü bütün dünyaya nümayiş etdirdi.

Dövlətin qətiyyəti, xalqın iradəsi, qüdrətli iqtisadiyyat, güclü ordunun mövcudluğu və xalqla birliyi, bir amal uğrunda həmrəylik, mübarizlik əhvali-ruhiyyəsi istənilən qələbənin qazanılmasında başlıca şərtdir. Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev Xocavənd rayonunun Hadrut qəsəbəsinə səfəri zamanı burada hərbi hissənin açılışındakı nitqində də həmin məqamlara bir daha diqqəti yönəldərək bildirdi ki, İkinci Qarabağ müharibəsi kimin kim olduğunu göstərdi. Bu müharibə Azərbaycan Ordusunun, Azərbaycan xalqının əyilməz iradəsinin ifadəsidir, Azərbaycan Ordusu müzəffər Ordudur!

Artıq bölgəmizdə yeni reallıq yaranıb. Bu reallığı Azərbaycan yaradıb. Ermənistan və 30 ilə yaxın dövrdə ona dəstək verib münaqişənin həllini bilərəkdən uzadan dövlətlər, beynəlxalq təşkilatlar da artıq bu reallıqlarla barışmaq məcburiyyətindədirlər. Barışmaya bilməzlər! 2021-ci ilin yanvarında Rusiya və Azərbaycan prezidentlərinin, Ermənistanın baş nazirinin Moskva, noyabr ayında Soçi görüşləri, dekabr ayında isə Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin təşəbbüsü ilə Azərbaycan Prezidenti cənab İlham Əliyevin və Ermənistanın baş naziri Nikol Paşinyanın Brüssel görüşü son bir ildə tarixi Zəfərimizin yaratdığı reallıqlar əsasında Azərbaycanın ədalətli mövqeyinin dəstəkləndiyinin aydın mənzərəsini təqdim etdi. İşğalçı Ermənistanın ölkəmizin təklif etdiyi sülh müqaviləsini imzalamaqda maraqlı olması bu gün Azərbaycanın rolunu diktə edən tərəf kimi ortaya qoyur. Eyni zamanda iqtisadi əlaqələrin qurulması, kommunikasiyaların açılması, bölgədə yeni əməkdaşlıq formatlarının yaradılması dayanıqlı sülhün və təhlükəsizliyin təmin edilməsini vacib amil kimi öndə saxlamağı tələb edir.

31 dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününü və Yeni il bayramını məhz Azərbaycanın tarixi Zəfərinin yaratdığı reallıqlara uyğun atdığı addımlar və qazanılan uğurlar fonunda qeyd edirik. Bunun üçün qürurluyuq.

Son bir ildə bu istiqamətdə görülən işlərə diqqət yetirsək, onların miqyasının ölçüyəgəlməz dərəcədə geniş olduğunu görərik. Bir məqamı xüsusi qeyd etməliyik ki, Azərbaycan yalnız özünün maliyyə resurslarına arxalanaraq sıfırdan yeni şəhər və kəndlər salır. Hansı ərazilər minalardan təmizlənibsə, orada bərpa və quruculuq işləri sürətlə aparılır. Zəfər yolu kimi dəyərləndirilən Füzuli-Şuşa yolu artıq istifadəyə verilib. Qarabağın dünyaya açılan hava qapısı olan Füzuli Beynəlxalq Hava Limanının açılışı sevincimizin üstünə daha bir sevinc gətirib. Qeyd edək ki, işğaldan azad edilmiş ərazilərdə tikilməsi nəzərdə tutulan üç hava limanının digər ikisinin inşası davam edir. Üç hava limanının inşası, dəmir yolunun çəkilməsi regionun logistik simasını tamamilə dəyişdirəcək. Yüz kilometrlərlə avtomobil yolunun reallaşdırılması da quruculuq tədbirləri sırasındadır. Bütün bölgələrdə elektrik enerjisi ilə bağlı layihələr qısa müddət ərzində icra ediləcək. İçməli su, kənd təsərrüfatı işləri, bir milyon insanın doğma məkanlarına qaytarılması, yüzlərlə məktəb, xəstəxana binaları, idman kompleksləri və mədəniyyət ocaqlarının inşası, habelə digər irihəcmli quruculuq tədbirləri Böyük Qayıdış çərçivəsində insanların bir daha sevincinə səbəb olacaq. Dövlət başçısı cənab İlham Əliyevin müvafiq fərmanı əsasında iqtisadi rayonların yeni bölgüsü həyata keçirilib – Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları yaradılıb. Ölkə Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" təsdiqlənib. Nəzərdə tutulan dövr ərzində beş milli prioritet reallaşdırılmalıdır: dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat; dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət; rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı; işğaldan azad olunmuş ərazilərə Böyük Qayıdış; təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi.

İşğaldan azad edilmiş ərazilərdə icra olunan və olunacaq yeni layihələr müasir texnologiyaların və kreativ yanaşmaların sintezidir. "Ağıllı kənd" layihəsi artıq həyata keçirilməkdədir. Zəngilan rayonunun üç kəndində – Birinci, İkinci, Üçüncü Ağalı kəndlərində bu layihə əsasında quruculuq işlərinə başlanılıb. Yaxın vaxtlarda isə layihənin tam başa çatacağı gözlənilir. Belə müasir layihələr bütün digər ərazilərdə icra olunacaq. Bu ərazilərimizdə tarixi və dini abidələrimizin bərpası istiqamətində mühüm addımlar atılır. İşlərin kompleks həyata keçirilməsində yeni idarəçilik sistemi əsas rol oynayır.

Bu bir həqiqətdir ki, Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə sosial sahədə aparılan davamlı islahatlar yeni mərhələyə qədəm qoymuşdur. Uğurla həyata keçirilən bu islahatlar ən çətin anlarda belə, dövlətin vətəndaşını unutmadığını təsdiqləməklə, ölkəmizdə dövlət-xalq birliyinin daha bir təcəssümü oldu . Həssas sosial qruplara yönələn siyasətdə davamlı və əhatəli münasibət qəbul edilən qərarlarda özünü göstərir. Ölkə başçımızın imzaladığı müvafiq fərman və sərəncamlar bu kateqoriyadan olan 732 min ölkə vətəndaşını əhatə edəcək. Ümumilikdə isə ilin sonunda imzalanan qanunvericilik aktları 2022-ci ildən, təqribən, 2 milyon vətəndaşın sosial rifahına və ailə büdcəsinə müsbət təsir edəcək. Bu rəqəmlər bir daha sübut edir ki, fərman və sərəncamlar kifayət qədər maliyyə tutumludur və həmin qrupdan olan əhalinin sosial rifahını daha da gücləndirəcək.

Son 3 ildə artırılan sosial ödənişlərə diqqət etsək, görərik ki, bu artımların böyük əksəriyyətində nisbət hər hansı faizlə deyil, dəfələrlə olub. Məsələn, əlilliyi olan şəxslərin müavinətini 2019-cu illə müqayisə etsək, yeni fərmanla bu fərq 2,2-2,5 dəfə artırılıb. Beləliklə, son üç ildə aparılan islahatlar nəticəsində sağlamlıq imkanları məhdudluğa görə müavinətlər I dərəcə üzrə 2,7 dəfə, II dərəcə üzrə 3 dəfə, III dərəcə üzrə 2,3 dəfə artırılıb. 2022-ci ildən övladlığa götürülən hər uşağa görə 200 manat, sağlamlığı məhdud hər uşağa görə isə 600 manat müavinət ödəniləcək. Yeni sosial baxışdan danışarkən 2019-cu il aprelin 1-də təsis edilən 1-ci dərəcə əlilliyi olan şəxslərə və sağlamlıq imkanları məhdud uşaqlara qulluğa görə Prezident təqaüdünü xüsusi qeyd etmək lazımdır. Bu kateqoriya üzrə də 60 faiz artım nəzərdə tutulmuş və növbəti ilə bu təqaüdün həcmi 80 manata çatdırılıb. Sosial siyasətin ana xəttində duran torpaqlarımızın azadlığı uğrunda döyüşlərdə iştirak etmiş və müharibə, hərbi xidmət vəzifələrini yerinə yetirməklə və digər xüsusi səbəblərlə əlaqədar sağlamlıq imkanları məhdud olan şəxslər durur. Bu şəxslərin təqaüdləri də cari ilin əvvəlində növbəti dəfə olmaqla, orta hesabla 50 faiz artırılıb. Bu faktlar dövlətin sosial siyasətini əks etdirməklə bərabər, bu siyasətin davamlı inkişafa mühüm töhfəsini göstərir.

***Görülən işlər 2022-ci ilə daha böyük inamla, xoş əhvali-ruhiyyə ilə qədəm qoymağa stimul verir. Birliyimiz, həmrəyliyimiz sayəsində işğaldan azad edilmiş ərazilərimizdə bərpa və quruculuq işlərini də yüksək səviyyədə başa çatdıracaq, soydaşlarımızın Böyük Qayıdışı təmin olunacaq. Bu ərazilərimizin iqtisadi potensialı, ümumilikdə, ölkə iqtisadiyyatına yönəldilməklə dayanıqlı inkişafa böyük töhfələr verəcək. Uğurlarımızın fonunda gələcəyə böyük nikbinliklə baxmalıyıq. 44 gündə 30 ilin işğalına son qoyan Qarabağlı və Şərqi Zəngəzurlu Azərbaycanı qarşıda böyük uğurlar gözləyir. Tam səmimiyyətlə, demək olar ki, görülmüş bu işlər qazandığımız Böyük Qələbəyə bərabərdir və yeni ildə yolumuza işıq saçacaq.***

**Gülcamal TAHİROVA**

# Yeni il sevincli, xoş ovqatlı söhbətlər

***Hər il olduğu kimi, bu il də muxtar respublikamızın şəhər və rayon mərkəzlərində Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə tədbirlər təşkil edilir. Bu tədbirlərdən biri də bayram tədbirində iaşə xidmətlərinin göstərilməsidir. Bu, sakinlərin istədikləri məhsulu daha asan əldə etmələri, həm də müxtəlif istehsal müəssisələrinin, kənd yaşayış məntəqələrində fəaliyyət göstərən ailə təsərrüfatçılarının öz məhsullarını satışa çıxarmasına imkan yaratmaq məqsədi daşıyır.***



Dekabrın 31-dən etibarən “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksində və Naxçıvan şəhərindəki Heydər Əliyev prospektində təşkil edilən növbəti belə tədbir yanvarın dördünə kimi davam edəcək. İlk gün, ümumilikdə, 18 istehsal müəssisəsi, 17 iaşə, 8 ailə təsərrüfatı, bir ticarət xidməti sakinlərin xidmətindədir. Biz də həmin bayram tədbirində iştirak edib sakinlər, ailə təsərrüfatçıları və istehsal müəssisələrinin əməkdaşları ilə həmsöhbət oluruq. “Gəmiqaya Qida Məhsulları” Məhdud Məsuliyyətli Cəmiyyətində 10 ildən artıqdır ki, çalışan ***Famil Qasımov*** deyir:

– Müəssisənin istehsalı olan süd və süd məhsulları, müxtəlif şirniyyatlar, xəmir məmulatları ilə sakinlərin xidmətindəyik. Buraya təkcə Naxçıvan şəhərindən yox, rayonlarımızdan da gələnlər var. Onlar da göstərilən xidmətlərdən yararlanırlar.

“Ləzzət Qida Sənaye” MMC-nin istehsalat şöbəsinin müdiri ***İldanə Əsədova*** ilə birgə həmin müəssisəyə məxsus stentdə satışa çıxarılan məhsullarla tanış oluruq:

– Hər bir bayram öz gəlişi ilə xalqa sevinc gətirir. Builki bayram tədbirində müəssisəmizin istehsalı olan yüzdən çox məhsulla iştirak edirik. Bu məhsulların içərisində müxtəlif növ şirniyyat, çərəzlər maraqla qarşılanır və alınır. “Nati” markası ilə satışa çıxarılan məhsullar, xüsusilə də uşaqların diqqətini çəkir. Çalışırıq ki, bu əziz gündə hər kəs müxtəlifçeşidli məhsullardan alıb süfrəsini bəzəyə bilsin. Münasib qiymətə satışa çıxardığımız məhsullar alıcı rəğbəti qazanıb.

Elə buradaca Bakı şəhərindən yurdumuza qonaq gələn ***Səbinə Əliyeva*** ilə həmsöhbət oluruq:

– Oğlum Sədərək rayonunda hərbi xidmətdədir. O, altı aydır ki, burada xidmət edir. Onu görmək, Yeni ili oğlumla qarşılamaq üçün diyarınıza gəlmişəm. Bu, Naxçıvana ilk gəlişimdir. İki gündür ki, buradakı gözəllikləri kəşf edir, qış fəsli bir yurda bu qədərmi gözəl yaraşar, – deyirəm öz-özümə. Başıqarlı dağların əhatəsində olan sərt iqlimə malik bu diyarın insanlarının ürəyi o qədər gözəldir ki, soyuq havada belə, insanın qəlbini isidir. Bu hisslər məndə əbəs yerə yaranmayıb. İki gün öncə Sədərək rayonuna oğlumu görməyə gedəndə gördüyüm mənzərə ürəyimi dağa döndərdi. Mən Bakıdan buraya pay tutub balamın görüşünə gəlmişdim ki, oğlum ana əlinin isti yeməyini dadsın. Gəlib görürəm ki, onların o qədər gözəl şəraiti var ki, sanki evlərindədirlər.



Üstəlik, buranın dövlət qurumları səngərdə xidmət edən əsgərləri öz balaları kimi əzizləyib onlara bayram sovqatı gətiriblər. Öyrənirəm ki, rayonun xanım icra başçısı şəxsən müxtəlif qurumların, nazirliklərin rəhbərləri ilə bərabər əsgərləri görməyə, onların bayramını təbrik etməyə gəlib. Minnətdaram muxtar respublikanın rəhbərinə ki, bu cür gözəl şərait yaradıb. Bayram tədbirinə gəldikdə təşkilatçılıq mükəmməldir. Hansı rayonun, hansı müəssisənin stendinə yaxınlaşdımsa, hörmət gördüm. Əsgər anası və qonaq olduğumu bilənlər “qonağımız olun”, – dedilər.



Bakı sakinindən xoş təəssüratlarla ayrılır, ailə təsərrüfatçıları ilə həmsöhbət oluruq. Şərur rayonunun Zeyvə kəndindən olan ***Günay Qasımova*** şirniyyat istehsalı ilə məşğuldur. O deyir ki, dövlətimizin yaratdığı şəraitdən istifadə edir, belə tədbirlərdə həm ailə təsərrüfatı məhsularının təqdimatını, həm də satışını təşkil edirik. Gətirdiyim məhsulların, demək olar ki, çoxunu satmışam. Yaradılan şəraitə görə dövlətimizə minnətdarlığımı bildirirəm.

Naxçıvan şəhər sakini, ailə təsərrüfatçısı ***Kamran Kazımov*** meyvə cipslərinin və tərəvəz tozlarının istehsalı ilə məşğuldur. Bildirir ki, həmişə dövlətimizin dəstəyini hiss edir. Bundan öncə də, bu gün də təşkil edilən tədbirlər məhsulların satışı ilə yanaşı, tanınmasına və sakinlərin istədikləri məhsulu daha asan əldə etməsinə xidmət edir. Havanın şaxtalı olmasına baxmayaraq, sakinlər şəhərin mərkəzində keçirilən bu bayram tədbirinə həvəslə gəlib.

Naxçıvanqalada təşkil edilən bayram tədbirində Kəngərli rayonunun Qarabağlar kənd sakini ***Elnarə Kazımova*** deyir ki, müxtəlif pencər quruları, dərman bitkiləri, mürəbbələr, qış yeməkləri istehsalı ilə məşğuldur. Belə tədbirlər kəndlinin, təsərrüfatçıların halal qazanc mənbəyidir. Fəaliyyətinin əsas istiqamətinin şirniyyatçılıq olduğunu deyən həmsöhbətimiz bildirir ki, bayram süfrəsinin əsas bəzəyi olan şirniyyatlar alıcılar tərəfindən rəğbətlə qarşılanıb.

Ordubad rayonunun Kotam kənd sakini ***Nazim Həsənov*** da söhbətə qoşulur:

– Əvvəllər bağlarımızdakı meyvələrdən satdığımızı satır, sata bilmədiyimiz isə yerə tökülərək zay olurdu. Ancaq dövlətin kəndli üçün yaratdığı bu imkan nəticəsində artıq yerə tökülən meyvələri də istifadəyə yararlı hala gətirib sata bilirik. Bu gün mən öz təsərrüfatımda müxtəlif növ losyonlar, meyvə araqları və sirkələri, həmçinin meyvə quruları istehsal edirəm.

“Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksində şəhər sakini ***Validə Məmmədova*** ilə də həmsöhbət oluruq:

– Nəvələrim şəhər mərkəzində bəzədilmiş yolkanın ətrafında gəzib əyləndikdən sonra buraya üz tutduq. Ordubadın sucuğundan, alanasından, Babəkin dadlı meyvələrindən, Qarabağların üç növ kəklikotusundan aldım. Uca Tanrıdan bu şəraiti yaradanlara ömür arzuladım. Bu xalq xoşbəxtdir ki, onun hər bir vətəndaşa qayğı göstərən dövləti var. Allah dövlətimizin bayrağını həmişə uca eləsin.

*Müstəqillik qazandığımız illərdən xalqımız ən çətin günlərdə belə, Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni ili ruh yüksəkliyi ilə qarşılayıb, gələn illərin daha xoş, daha gözəl günlər gətirməsi diləyi ilə bir-birlərini təbrik edib. Artıq iki ildir ki, bu bayramları qalib və güclü dövlət, qüdrətli xalq olaraq qeyd edir və illər öncə gələn il bu vaxt Qarabağımızın azad olmasını arzulayırdıqsa, artıq iki ildir ki, cənnətimizin yenidən qurulmasından, bərpa olunan tarixi yerlərimizdən söhbət açırıq. Gələn il azad torpaqlarımızda dövlət qayğısı ilə bərpa olunan evlərimizdə öz çırağımızı yandırıb, süfrə bəzəyib, yeni ili qarşılamağı arzu edirik.*

✍ **Ramiyyə ƏKBƏROVA**

## Dövlət-xalq-ordu birliyi milli həmrəyliyimizin ən gözəl nümunəsidir

Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin və Sədərək Rayon İcra Hakimiyyətinin birgə iştirakı ilə 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə Sədərək rayonunda yerləşən “N” hərbi hissənin əsgərləri ilə görüş olub.

Görüşdə Sədərək Rayon İcra Hakimiyyətinin başçısı Mahirə Adnayeva, Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin rəisi, III dərəcəli dövlət miqrasiya xidməti müşaviri Şahin Nəbiyev qarşıdan gələn 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə hərbi hissənin kollektivini səmimi qəlbdən təbrik edib, onlara xoş arzularını çatdırıblar.

Vurğulanıb ki, Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən həyata keçirilən ordu quruculuğu siyasəti nəticəsində bu gün Azərbaycan Ordusu regionun ən qüdrətli ordusuna çevrilib, vətənpərvər və peşəkar şəxsi heyət formalaşdırılıb. Ölkə Prezidentinin siyasi iradəsi və qətiyyəti, ordumuzun gücü, döyüş əzmi, həmçinin xalq-ordu birliyi, şübhəsiz ki, 44 günlük Vətən müharibəsində əldə edilən tarixi Qələbənin əsas amillərindəndir.

Sonda yerli istehsal olan müxtəlif növ bayram sovqatları hərbi hissəyə təhvil verilib.

**Xəbərlər şöbəsi**

## Hərbi qulluqçular mükafatlandırılıb



*Naxçıvan Qarnizonu Qoşunlarında 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə keçirilən silsilə tədbirlərin davamı olaraq xidmətdə və döyüş tapşırıqlarının icrasında fərqlənən hərbi qulluqçular mükafatlandırılıb.*

Əlahiddə Ümumqoşun Orduda keçirilən tədbirlərdə əvvəlcə şəhidlərimizin əziz xatirəsi yad edilib və Dövlət Himnimiz səsləndirilib.

Şəxsi heyətə çatdırılan təbriklərdə bildirilib ki, ümummilli liderimiz Heydər Əliyev tərəfindən Naxçıvan Muxtar Respublikasında əsası qoyulan dünya azərbaycanlılarının həmrəylik ideyası milyonlarla soydaşımızı birləşdirən dövlətçilik və vətənpərvərlik amalına çevrilib. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrimizin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin həyata keçirdiyi məqsədyönlü tədbirlər, soydaşlarımızın vahid ideologiya ətrafında birləşməsi yolunda gördüyü işlər, qəbul etdiyi tarixi qərarlar dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlılarda milli ruhun yüksəldilməsinə, onların doğma Vətənə bağlılıqlarının artırılmasına səbəb olub. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun qayğısı ilə Naxçıvanda digər sahələrlə yanaşı, ordu quruculuğu istiqamətində də ardıcıl tədbirlər görülür, dövlət-xalq-ordu birliyi möhkəmlənir. Xalqımızın milli birliyinin rəmzinə çevrilən Dünya Azərbaycanlılarının Həmrəyliyi Günündə muxtar respublikamızda əsgərlərlə görüşlərin keçirilməsi, sovqatların aparılması da dövlət-xalq-ordu birliyinin daha bir nümunəsi, həmrəyliyin ifadəsidir. İnanırıq ki, Milli Həmrəylik Gününü böyük qürur hissi ilə qeyd edən Naxçıvan Qarnizonunun şəxsi heyəti göstərilən yüksək etimadı bundan sonra da şərəflə doğruldacaq, bütün bilik və bacarıqlarını ordumuzun daha da güclənməsinə və inkişafına sərf edəcək.

Çıxışların ardından hərbi qulluqçulara növbəti hərbi rütbələr və fəxri fərman təqdim edilib, təşəkkür elan olunub, şəxsi heyət qiymətli hədiyyələrlə mükafatlandırılıb.

Bayram tədbirləri Əlahiddə Ümumqoşun Ordunun birləşmə, hissə və bölmələrində, Təlim-Tədris mərkəzlərində təşkil olunan konsert proqramları ilə davam edib. Hərbi hissələrin bədii özfəaliyyət kollektivlərinin ədəbi-bədii kompozisiya ilə çıxış etdiyi tədbirlərdə şəhər və rayon mədəniyyət kollektivlərinin solistləri bayram ovqatlı mahnılar ifa ediblər.

**Nəriman NƏCƏFOV**

## Əzizə Cəfərzadənin anadan olmasının 100 illiyi münasibətilə tədbir keçirilmişdir



Məmməd Səid Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanası tərəfindən Xalq yazıçısı Əzizə Cəfərzadənin anadan olmasının 100 illiyi münasibətilə onlayn tədbir keçirilmişdir.

Tədbiri giriş sözü ilə kitabxananın direktoru Tamella Əsgərova açaraq bildirmişdir ki, XX əsr Azərbaycan ədəbiyyatında Əzizə Cəfərzadə yaradıcılığının özünəməxsus yeri vardır. O, xalqımızın əsrlərboyu təşəkkül tapmış yüksək milli-mənəvi dəyərlərinin qorunması, elimizin gözəl adət-ənənələrinin təbliği ilə məşğul olmuş, altmış ildən artıq bir dövr ərzində yorulmadan yazıb yaratmış, çoxsaylı əsərləri ilə nəsrimizin inkişafına qiymətli töhfələr vermişdir.

Kitabxananın elmi işlər üzrə direktor müavini Yeganə Rüstəmova, “Naxçıvan” Universitetinin elmi katibi, filologiya üzrə fəlsəfə doktoru, dosent Əli Həşimov çıxış edərək Xalq yazıçısı Əzizə Cəfərzadənin həyatı və ədəbi fəaliyyəti haqqında ətraflı məlumat vermişlər.

Sonra görkəmli ədibin oğlu, Əzizə Cəfərzadə irsinin qorunub saxlanılmasında böyük xidmətləri olan texnika elmləri üzrə fəlsəfə doktoru Turan İbrahimov anası haqqında xatirələrini tədbir iştirakçıları ilə bölüşmüş, ədibin bu günümüz üçün də aktual olan elmi-ədəbi irsindən bəhs etmişdir.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Nail Əsgərov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 1